**Xiyabanda qəm əlində qovrulan atalar, analar, baçılar, qardaşlar gördum. Onların qəlbindən qopan haraylar** mənim **də qəlbimdən qopdu. Bu misraları da onların dilindən aldım qələmə.**

O ANANIN DİLİNDƏN

«Ana, gələcəyəm, sağ ol»—söylədin,
O, «sağ ol»un daha joxdu...
Gedən yolundu gördüyüm,
Gələn yolun daha yoxdu...
Məni quçaqlayan qolun
Daha yoxdu...
Öpə-öpə daradığım
O qara telin yoxdu...
Özü gedib, adı qalan,
Bir təpəçik torpaq olan —
Balam mənim.
Yerlə göyün arasında
Xatirəsi qalan mənim...
Xatirənə şirin deyim,
Necə deyim?
Açı deyim, necə deyim?
Xatirəsi ağrım, acım göynəyim.
Sən orda yuxuya dal.
**Mən də** burda
Yana-yana göynəyim...

O ATANIN DİLİNDƏN

Elə deyirdin: «Ay ata,
Dolanım başına sənin»,

Dolanıram indi, oğul,
Qəbrinin daşına sənin.
Xəzan vurdu, soldu gülüm,
Yandı bağrım, yandı dilim,
Neçə qıydı zalım ölüm
O çavan yaşına sənin?!
Ölüm peşman olubdu,
Göylər parişan olubdu.
Qəbrin gültək sançılıbdı
Baknın döşünə sənin...

Əjdər Fərzəli